

# Akif AZALP - 70

Hörmətli Akif müəllimi 70 illik yubileyi münasibətilə təbrik edirik!

Azərbaycan və Özbəkistan ədəbi-elmi ictimaiyyəti onu tanınmış şair, mahir tərcüməçi və istedadlı ədəbiyyatşünas kimi tanıyır.

Akif Azalp 1971-ci ildə Şahbuz rayon Nursu kənd orta məktəbini qızıl medalla bitirərək, Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1974-cü ildə əlaçı tələbə kimi dövlət xətti ilə Daşkənd Dövlət Universitetinin Özbək dili və ədəbiyyatı fakültəsinə göndərilmisdir. Universiteti fərqlənmə diplomu ilə və aspiranturanı uğurla başa vurduqdan sonra uzun illər Özbəkistan Elmlər Akademiyasının Əlişir Nəvai adına Dil və Ədəbiyyat İnstitutunda müxtəlif elmi vəzifələrdə çalışmışdır.

"Türkdilli poeziyada tuyuq (janrın poetikası və tarixi)", "Bədii ideal və tarixi həqiqət" adlı sanballı elmi tədqiqatları akademiklər Vahid Zahidov, Həmid Araslı, İzzət Sultan, Vahid Abdullayev, Əziz Kayumov, Bəyəli Qasımov, Cahangir Qəhrəmanov, professorlar Əkrəm Cəfər, Xalıq Koroğlu, Xətib Qosman, İ.V.Stebleva və başqa görkəmli alimlər tərəfindən yüksək qiymətləndirilmişdir.

Yaradıcılığının əsas sahəsi poeziya və bədii tərcümədən ibarətdir. Azərbaycan və özbək dillərində çap olunan beş şeir və tərcümə kitabında, eləcə də, mətbuatda hər iki dildə dərc edilən onlarla poetik silsilələrində bir sıra ciddi uğurlara imza atmışdır. Xüsusən, "Olimp" poemasında və bir çox digər poetik nümunələrində Olimpiya ideallarının və milli idman dəyərlərimizin təsirli tərənnümü onun poeziyamız qarşısındakı ciddi xidmətlərindən biridir.

Üç böyük silsilədən ibarət "İstiqlalnamə" ("Öndərnamə", "Zəfərnamə", "Hüma") trilogiyası Azərbaycan şeirində bu mötəbər mövzuda yazılan ən gözəl örnəklərdən sayıla bilər. Qarabağ ağrısı ilə yaranan, möhtəşəm qələbəmizi tərənnüm edən və muğam obrazını canlandıran çoxsaylı şeirləri, poemaları ("Türkmənçay", "Nuhçıxan", "Kaman", "Qaçqın", "44:0") və dramları ("Mələklərin eşqi", "Cənnət çiçəyi") haqqında da eyni qənaəti söyləmək olar.

Akif Azalp bir şair kimi bədii uğurları öz vaxtında Azərbaycan və Özbəkistanın bir sıra Xalq şair və yazıçıları tərəfindən qeyd edilib. Türkdilli ədəbiyyatlarda çoxsaylı nəzirə və ithaflara qaynaq olmuş məşhur "Salam, dar ağacı!" şeirinə (1986) Xalq yazıçısı Anarın iki cildlik "Min beş yüz ilin oğuz şeiri" antalogiyasında yer ayrılmışdır. Təsadüfi deyildir ki, o, özbək dilindən uğurlu tərcümələrinə görə 2005-ci ildə keçirilmiş Özbəkistan, Gürcüstan və Azərbaycan yazıçılarının Beynəlxalq Bakı konfransının, eləcə də, "Turanın qürur zirvəsi və birlik rəmzi" məqaləsinə görə 2013-cü ildə keçirilən "Heydər Əliyev - 90" və "Şəhid öygüsü" şeirinə görə 2020-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən elan olunan "Vətənpərvərlik - 2020" respublika müsabiqələrinin qalibi olmuşdur.

Akif Azalp eyni zamanda, gənc bəstəkar Almaz Yaqutun bəstəsində, Azərbaycan və Özbəkistanın xalq artisti Gülyanaq Məmmədovanın ifasında yayımlanan və türk birliyini əks etdirən gözəl mahnıların müəllifidir. Haqqında və öz iştirakı ilə hər iki ölkədə bir neçə sənədli telefilm çəkilmişdir.

Hörmətli Akif müəllimi yubileyilə bağlı təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və yeni-yeni uğurlar diləyirik!

**Azərbaycan Yazıçılar Birliyi**